

# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

5 mart 2026-cı il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 9 (3772)


# Enerjidə qlobal əməkdaşlıq




## Azərbaycan aparıcı enerji mərkəzlərindən biridir

***Prezident İlham Əliyev: “Azərbaycan boru kəmərləri vasitəsilə qaz tədarük etdiyi ölkələrin sayına əsasən dünyada birinci yerdədir”.***

“Cənub Qaz Dəhlizi” Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci iclası və “Yaşıl Enerji” Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclası bu dəfə də Bakıda toplaşıb. Bu mötəbər toplantılar üçün paytaxtımızın dəyişməz ev sahibi olması bir sıra səbəblərdən irəli gəlir. Əvvəla, Avropanın enerji xəritəsini dəyişdirən möhtəşəm “Cənub qaz dəhlizi” layihəsinin təşəbbüskarı və aparıcı qüvvəsi Azərbaycandır. “Yaşıl enerji” hədəflərimiz də hamıya bəllidir və dünya tərəfindən dəstəklənir. Ən başlıca səbəblərdən biri də dövlətimizin başçısı İlham Əliyevin dünyada qazandığı nüfuzdan, kəsərli söz sahibi olmasından, Azərbaycana etibarlı tərəfdaş imici qazandırmasından qaynaqlanır.

Prezident İlham Əliyev tədbirdə çıxışı zamanı Azərbaycanın enerji təhlükəsizliyinin təmin olunmasında oynadığı rola xüsusi diqqət çəkib. Dövlət başçısı qeyd edib ki, Məşvərət Şurasının fəaliyyətə başlamasından artıq on ildən çox vaxt keçib və bu müddətdə tərəfdaşlıq real nəticələr verib. Bu gün Azərbaycan qazı artıq 16 ölkəyə çatdırılır. Beləliklə, boru kəmərləri vasitəsilə qaz tədarük edilən ölkələrin sayına görə Azərbaycan dünyada aparıcı mövqeyə yüksəlib.

Prezident vurğulayıb ki, ötən illə müqayisədə qaz tədarükünün coğrafiyası daha da genişlənib. Azərbaycanın qaz ixracı Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayıb. Hazırda Avropa İttifaqının 10 üzv dövləti Azərbaycan qazından istifadə edir.

Dövlət başçısı çıxışında Azərbaycanın yeni enerji bazarlarına çıxış imkanlarının genişləndirilməsi istiqamətində atdığı addımlardan da bəhs edib. Bildirilib ki, artıq Almaniya və Avstriyaya qaz tədarükünə başlanılıb. Bununla yanaşı, Azərbaycan qazı ilk dəfə olaraq Avropadan kənara da ixrac edilib. Suriyaya 1,5 milyard kubmetr həcmində qazın çatdırılması həmin ölkədə elektrik enerjisi qıtlığının azaldılmasına dəstək verib.

Azərbaycanın enerji siyasətində bərpaolunan enerji mənbələrinin inkişafının da diqqət mərkəzində saxlanıldığını deyən Prezident ölkəmizin bu sahədə əldə etdiyi uğurlardan bəhs edib. Qeyd edib ki, cari ilin əvvəlində regionun ən böyük külək elektrik stansiyalarından biri istifadəyə verilib, 240 meqavat gücündə olan bu layihə “ACWA Power” şirkətinin iştirakı ilə həyata keçirilib. Bundan əvvəl isə “Masdar” şirkəti tərəfindən 230 meqavat gücündə Günəş elektrik stansiyası tikilib və istismara verilib.

Dövlət başçısı bildirib ki, Azərbaycan 2032-ci ilə qədər alternativ enerji mənbələrindən 6–8 giqavat elektrik enerjisi əldə etməyi planlaşdırıb.

Çıxışında Azərbaycanın beynəlxalq tərəfdaşlıqlarına da toxunan dövlət başçısı deyib ki, ABŞ ilə imzalanmış Strateji Tərəfdaşlıq Xartiyası enerji, süni intellekt, kommunikasiya və digər sahələrdə geniş əməkdaşlıq imkanları yaradır. Eyni zamanda, Azərbaycan xarici ölkələrdə enerji layihələrində də fəal iştirak edir. Türkiyədə böyük elektrik stansiyasının alınması və Serbiyada yeni elektrik stansiyasının tikintisinə dair razılaşma ölkəmizin enerji sahəsində beynəlxalq mövqeyini gücləndirir.

Mütəxəssislər hesab edirlər ki, Azərbaycan həm təbii qaz ehtiyatları, həm də alternativ enerji potensialı ilə regionun aparıcı enerji mərkəzlərindən birinə çevrilib. Bakıda keçirilən növbəti Məşvərət Şurası iclası isə ölkəmizin qlobal enerji əməkdaşlığında oynadığı strateji rolu bir daha nümayiş etdirdi.

# Daxili İşlər Nazirliyinin qadın əməkdaşlarına



**Hörmətli həmkarlar!**

**Sizi 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edir, ən xoş arzularımı çatdırıram. Fədakarlığı, mətinliyi, nəcib keyfiyyətləri və Vətənə sədaqəti ilə hər zaman cəmiyyətin dayağı olan Azərbaycan qadını milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasında, zəngin mədəni irsimizin nəsildən-nəslə ötürülməsində, ailə institutunun möhkəmləndirilməsində misilsiz xidmətləri ilə seçilir.**

**Öz nəcib missiyasını bu gün də davam etdirərək dövlət quruculuğu prosesində fəal iştirak edən qadınlar ictimai-siyasi həyatda, elm, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə yüksək peşəkarlıq nümayiş etdirir, ölkəmizin tərəqqisinə, beynəlxalq nüfuzunun möhkəmlənməsinə, vətənpərvər və milli ruhda tərbiyə olunmuş gənc nəslin formalaşmasına mühüm töhfələr verirlər.**

**Qurub-yaratmaq əzmi tükənməyən və xalqımızın rifahının yüksəlməsi naminə daim əzmlə çalışan Azərbaycan qadınının mədəniyyətlərarası dialoqun formalaşdırılmasında xidmətləri respublikamızın hüdudlarından kənarda da yüksək qiymətləndirilir.**

**Bu əlamətdar gündə daxili işlər orqanlarında və Daxili Qoşunlarda çalışan qadınların xidmətdə əldə edilən müsbət nəticələrdə böyük əməyini xüsusi vurğulayaraq hər birinizə təşəkkür edir, möhkəm can sağlığı, ailə səadəti, xoşbəxtlik, fəaliyyətdə uğurlar arzulayıram!**

**Bayramınız mübarək olsun!**

**Vilayət Eyvazov**
***Azərbaycan Respublikasının daxili işlər naziri***
***general-polkovnik***

## Prezident komissarı qəbul edib

### Enerji və yaşıl gündəlik müzakirə olunub

Prezident İlham Əliyev martın 3-də Cənub Qaz Dəhlizi və Yaşıl Enerji Məşvərət Şuraları çərçivəsində Bakıda səfərdə olan Avropa Komissiyasının enerji və mənzil siyasəti üzrə komissarı Dan Yorgenseni qəbul edib. Görüşdə Avropa ilə enerji tərəfdaşlığının genişləndirilməsi, qaz ixracının artırılması və yaşıl enerji layihələrinin perspektivləri müzakirə olunub. Tərəflər enerji təhlükəsizliyi və qarşılıqlı etimadın möhkəmləndirilməsi məsələlərinə xüsusi diqqət ayırıblar.

## Əlaqələrdə yeni impuls

### İkitərəfli məsələlər müzakirə edilib

Prezident İlham Əliyevin martın 2-də Rusiya Federasiyası Hökuməti Sədrinin müavini Aleksey Overçukla görüşündə Azərbaycan–Rusiya münasibətlərinin aktual məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Tərəflər iqtisadi-ticari əlaqələrin inkişafı, nəqliyyat-logistika layihələri və Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizi üzrə əməkdaşlığın davam etdirilməsi niyyətini təsdiqləyiblər. Humanitar sahədə əməkdaşlıq məsələlərinə də toxunulub.

## Kommunal xidmətlərin keyfiyyəti yüksəldilir

### Prezident yeni texnikalarla tanış olub

Prezident İlham Əliyev Bakıda məişət tullantılarının daşınması üçün nəzərdə tutulan yeni texnikalarla tanış olub. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin sifarişi ilə Gəncə Avtomobil Zavodu tərəfindən istehsal edilən 70 ədəd, 22 kubmetr tutumlu kommunal maşın 58 şəhər və rayona göndəriləcək. Layihə regionlarda sanitariya vəziyyətinin yaxşılaşdırılmasına, ekoloji tarazlığın qorunmasına və yerli sənayenin güclənməsinə xidmət edir.

## Yeni hakimlər təyin olunub

### Prezident bununla bağlı sərəncam imzalayıb

Prezident İlham Əliyev birinci instansiya məhkəmələrinə hakimlərin təyin edilməsi barədə sərəncam imzalayıb. Sərəncama əsasən bir sıra məhkəmələrə hakim təyinatı həyata keçirilib. Təyinatlar ağır cinayətlər məhkəmələri, inzibati məhkəmələr, Naxçıvan Muxtar Respublikasının rayon məhkəmələri, Bakı şəhərinin rayon məhkəmələri və ölkənin müxtəlif rayon və şəhər məhkəmələrini əhatə edir. Ümumilikdə sərəncamla 34 məhkəməyə hakim təyin olunub.


Tarixi yaddaşın keşiyində........................2
Kibercəbhədə irəliləyiş........................2
Cəsur oğul, qalib döyüşçü..................3
London polisinin ilk qadın komissarı.4

# Daxili işlər naziri vətəndaş qəbulu və sıra baxışı keçirəcək

## Vətəndaşlar polisin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət edə bilərlər




Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov martın 6-da Yevlax rayonunda növbəti vətəndaş qəbulu və polis orqanları, o cümlədən daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirəcək. Yevlax Rayon Polis Şöbəsinin inzibati binasında baş tutacaq qəbulda Yevlax, Mingəçevir, Ağdaş, Ucar və Kürdəmir rayonlarının sakinləri iştirak edə bilərlər.

Qəbula yazılmaq istəyən vətəndaşlar Nazirliyin səlahiyyətlərinə aid məsələlərlə bağlı martın 5-dək yaşadıqları ərazinin polis orqanına, habelə Nazirliyin "E-Polis" mobil tətbiqi, e-xidmət.mia.gov.az elektron xidmət portalı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.

Polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan namizədlərin sıra baxışı martın 6-da 08:00-da Yevlax Olimpiya İdman Kompleksində keçiriləcək.

Qeyd edək ki, qəbula və sıra baxışına gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.

# Respublika Xəbərləri

### Bu ərazidə yürüş qadağan edildi

Ətrafında 200 metr radius çərçivəsində yığıncaqların, mitinqlərin, nümayişlərin və küçə yürüşlərinin keçirilməsi qadağan edilə bilən mərkəzi, rayon və şəhər icra hakimiyyəti orqanlarının yerləşdiyi binaların siyahısında dəyişiklik edilib. Bununla bağlı Baş nazir Əli Əsədovun imzaladığı qərara əsasən, Dövlət Mühafizə Xidmətinin inzibati binası bu siyahıya daxil edilib.

### Sərhəd onlara sədd çəkdi

Ötən ay ərzində dövlət sərhədində cinayətkarlığa qarşı mübarizə tədbirləri nəticəsində hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan 349 nəfər saxlanılaraq aidiyyəti orqanlara təhvil verilib. Ölkədən çıxışı qadağan edilmiş 554 nəfərin ölkəni tərk etməsinin, girişi qadağan olan 13 nəfərin isə ölkəyə daxil olmasının qarşısı alınıb.

### Məcəllələrdə terminlər dəyişir

Cinayət və Cinayət-Prosessual məcəllələrində dəyişiklik edilir. Birləşmiş Millətlər Təşkilatının Kibercinayətkarlığa qarşı Konvensiyasının tələblərinə uyğun olaraq, Cinayət Məcəlləsində "kompüter sistemi" ifadəsi "İKT sistemi", "kompüter məlumatları" isə "elektron verilənlər" terminləri ilə əvəz edilir. Eyni zamanda, "qanunvericiliyə trafik verilənləri", "abunəçi məlumatları", "məzmun verilənləri" və "xidmət provayderi" kimi yeni hüquqi anlayışlar daxil edilir.

### Bu il yeni iş yerləri açılacaq

2026-cı ildə ölkənin bir çox regionlarında yeni müəssisələr açılacaq. Ölkənin bir çox sənaye parklarında açılışlar nəzərdə tutulub. Məlumata görə, 300 milyon manat dəyərində müəssisələrin fəaliyyətə başlaması nəzərdə tutulub ki, bu da 3 000 yeni iş yerinin açılması deməkdir. Həmçinin Mingəçevirdə 153 milyon manat dəyərində tekstil müəssisəsinin təməli qoyulacaq. Burada 2 300 yeni iş yeri yaradılacaq.

### İpoteka ilə ev istəyənlərin nəzərinə...

İpoteka və Kredit Zəmanət Fondu tərəfindən müvəkkil banklara ipoteka kreditlərinin, o cümlədən güzəştli ipoteka kreditlərinin verilməsi üçün limitlər ayrılıb. Vətəndaşlardan müraciətlərin qəbuluna adi ipoteka kreditləri üzrə martın 5-dən, güzəştli ipoteka kreditləri üzrə isə martın 6-dan başlanılacaq. Müraciətlərin qəbulu www.e-gov.az üzərindən elektron imza vasitəsilə həyata keçiriləcək.

# Tarixi yaddaşın keşiyində

## Mədəni irsin qorunması müqəddəs missiyadır

**Qarabağ işğal ediləndə ilk hədəfə alınanlar mədəni abidələrimiz oldu. Məscidlər dağıdıldı, türbələr yerlə-yeksan edildi, tarixi binalar talan edildi, daş kitabələr söküldü, yüzilliklər boyu bu torpaqlarda yaşayan soydaşlarımızın izlərinin silinməsinə cəhdlər edildi. Bu vandalizm təsadüfi idimi? Əlbəttə, xeyr.**





Bir xalqın yaddaşını sarsıtmaq, onun torpaqla bağını qoparmaq istəmişdi düşmən. Çünki bilirdi ki, mədəni irs xalqın keçmişi, dili, inancı, dünyagörüşüdür və bu abidələr dağıdılanda tarix də silinməlidir.

Ancaq bacarmadılar. Azərbaycanın milli yaddaşını məhv etmək mümkün olmadı. Bu gün azad Qarabağda bərpa prosesi gedir, uçurulmuş məscidlərin minarələri yenidən ucalır, türbələr bərpa olunur, qədim şəhərlərin ruhu dirçəlir. Hər bərpa edilən abidə milli kimliyimizin ayaqda olduğunu göstərir.

Keçmişlə bu günü birləşdirən bu mədəni körpülərin keşiyini isə Azərbaycan polisi çəkir. Qarabağda mədəni irsin mühafizəsi xüsusi diqqət mərkəzində saxlanılır. Çünki bu, gələcək nəsillərin kimliyinin qorunması deməkdir.

Həm də axı bu torpaqlarda təhlükəsizlik, sabitlik olmadan bərpa, quruculuq, dirçəliş mümkün olmazdı. Böyük Qayıdış məhz təhlükəsizliyin yüksək səviyyədə təmini şəraitində həyata keçirilir. Tarixi-mədəni abidələrin qorunması isə bu qayıdışın, sabitliyin və ictimai təhlükəsizliyin mənəvi dəyərini bir qədər də artırır. İctimai asayişi qoruyan polis eyni zamanda xalqın yaddaşını, şəhidlərin xatirəsini, əsrlərin mirasını qoruyur. Tarixlə gələcək arasında risklərə qarşı sipər olur.

Abidələri mühafizə edən polis dövlətin iradəsini, qanunun gücünü, xalqın qətiyyətini nümayiş etdirir eyni zamanda. Qarabağ torpağında keşik çəkərkən milli yaddaşın da keşiyində dayanır, milli kimliyimizin qorunmasına verilən dövlət zəmanətini təcəssüm etdirir. Orada elə abidələr var ki, beynəlxalq mədəni irs siyahılarına daxil edilib. Deməli, onların qorunması xidmətin miqyasını, sərhədlərini böyüdür, bəşəri missiyaya çevirir.

*Rəşad Mehtiyev*

# Elmi-praktiki konfrans keçirilib

## Qadınlara qarşı zorakılıq halları və görülən işlər müzakirə olunub






Martın 3-də Daxili İşlər Nazirliyinin təşkilatçılığı ilə "Qadınlara qarşı zorakılıq hallarının qarşısının alınmasında strateji əməkdaşlıq: imkanlar və perspektivlər" mövzusunda elmi-praktiki konfrans keçirilib.

Konfransda Nazirliyin və müxtəlif dövlət qurumlarının əməkdaşları, eləcə də QHT nümayəndələri iştirak ediblər.

Açılış nitqi ilə çıxış edən daxili işlər nazirinin müavini İsmət Əliyev qadınlara qarşı zorakılığın qarşısının alınması, ailə münasibətlərinin möhkəmləndirilməsi və uşaqların hüquqlarının qorunmasının Azərbaycanın dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biri olduğunu, bu sahədə məqsədyönlü tədbirlərin həyata keçirilməsinin, cəmiyyətin maarifləndirilməsi və zərərçəkmiş şəxslərə dəstək mexanizmlərinin formalaşdırılmasının xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb. O, ailə münaqişəsi, həmçinin məişət zorakılığı ilə bağlı polis orqanlarına daxil olan müraciətlərin araşdırılmasına xüsusi həssaslıqla yanaşıldığını, cinayətlərin, o cümlədən qadınlara və uşaqlara qarşı törədilmiş ailə-məişət xarakterli zorakılıq əməllərinin qarşısının alınması sahəsində Nazirlik tərəfindən aidiyyəti dövlət qurumları ilə birgə kompleks tədbirlərin görüldüyünü diqqətə çatdırıb.

Dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının nümayəndələri və mütəxəssislər qadınlara qarşı zorakılıqla mübarizə sahəsində dövlət siyasətinin icrası, görülən işlər və qarşıda duran vəzifələrlə bağlı ətraflı məlumat verib, bu sahədə qanunvericilik aktları və milli proqramların zorakılığın qarşısının alınmasına, zərərçəkmiş şəxslərin müdafiəsinə və cəmiyyətdə sıfır tolerantlıq mühitinin formalaşdırılmasına xidmət etdiyini qeyd ediblər.

Tədbirdə "Zorakılığa məruz qalmış qadınların sosial və hüquqi yardımla təminatı" və "Erkən evlilik hallarının ağır fəsadları və hüquqi məsuliyyəti" mövzularında videoçarxlar nümayiş etdirilib. "Ailə-məişət zəminində törədilən hüquq pozuntuları", "Erkən evlilik hallarının ağır fəsadları və hüquqi məsuliyyəti", eləcə də "Evlənmək məqsədilə adam oğurluğu (qızqaçırma)" mövzuları ətrafında çıxışlar dinlənilib, bu sahədə mövcud çağırışlar, qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş və faydalı müzakirələr aparılıb.

# Kibercəbhədə irəliləyiş...

## Polisin kibermaarifləndirmə fəaliyyəti real nəticələr verir




Müasir dövrdə təhlükəsizlik anlayışı bir xeyli dəyişib. Məsələn, artıq cinayətlər yalnız küçədə, qaranlıq dalanlarda baş vermir. Cibimizdəki telefona, gündəlik istifadə etdiyimiz sosial şəbəkə hesabımıza, elektron poçt ünvanımıza gələn mesaj bizi bir anda təhlükə ilə üz-üzə qoya bilər. Yəni rəqəmsal mühit yeni imkanlar açdığı kimi, yeni risklər də yaradıb. Belə risklərlə mübarizə aparan kiberpolis öz fəaliyyəti ilə cinayətkarlıqla mübarizəyə ciddi töhfə verməkdədir.

Bütün dünyada sürətlə yayılan kibercinayətkarlıq, onlayn dələduzluq hallarının bizdən yan ötməsi şübhəsiz ki, mümkün deyildi. Bank kartı məlumatlarının ələ keçirilməsi, onlayn mərc və qumar platformaları vasitəsilə vəsaitlərin mənimsənilməsi kimi cinayətlər çoxdan qlobal problemə çevrilib. Belə bir şəraitdə nəticə əldə etmək üçün təkcə cinayətin üstünün açılması kifayət etmir. İndi uğur əsasən qabaqlayıcı tədbirlər görmək, vaxtında müdaxilə etmək və cəmiyyəti nə dərəcədə kibermaarifləndirə bilməkdən asılıdır.

Məhz bu istiqamətdə həyata keçirilən sistemli fəaliyyət Azərbaycanda real nəticə verməkdədir. Təhlillər göstərir ki, 2025-ci ildə informasiya və kommunikasiya texnologiyalarından istifadə etməklə törədilən cinayətlərin sayı əvvəlki illə müqayisədə 348 fakt azalıb.

Bəs statistikadakı bu müsbət tendensiyanın arxasında konkret hansı tədbirlər dayanır?

İlk növbədə polisin texniki-əməliyyat tədbirlərini qeyd etməliyik. Daxili İşlər Nazirliyinin Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsi onlayn mühiti, obrazlı desək, təmizləyir. Zərərli sosial şəbəkə hesabı və səhifələri aşkarlanaraq bloklanır, bank kartlarının alqı-satqısı ilə məşğul olan şəbəkələr zərərsizləşdirilir, qanunsuz onlayn dövriyyə kanalları bağlanır. Bu tədbirlər nəticəsində minlərlə vətəndaşın maddi zərərə məruz qalmasının qarşısı alınır.

Təbii ki, azalma təkcə əməliyyatların nəticəsi deyil. Paralel olaraq aparılan geniş maarifləndirmə ilə sosial şəbəkələrdə yayımlanan xəbərdarlıqlar, televiziya və internet resurslarında paylaşılan çarxlar, təhsil müəssisələrində təşkil olunan görüşlər insanları rəqəmsal təhlükələr barədə düşünməyə vadar edir. Polis sadə, lakin təsirli çağırış irəli sürür: şübhələn, inanma, yoxla. Bu prinsip artıq minlərlə internet istifadəçisi üçün davranış modelinə çevrilib.

Bir sözlə, risklərin əvvəlcədən müəyyənləşdirilməsi, potensial təhlükələrin analiz edilməsi və preventiv tədbirlərin gücləndirilməsi əsas prioritetdir. Bu isə cinayətlərin qarşısını almağa xidmət edir və qeyd edilən statistikadakı müsbət tendensiya ilə ifadə olunur.

Doğrudur, kibermakanda risklər artmaqda davam edir. Texnologiyalar inkişaf etdikcə cinayətkarlar da yeni üsullara əl atır. Ancaq elə öz təcrübəmiz də göstərir ki, güclü dövlət nəzarəti, operativ müdaxilə və məlumatlı cəmiyyət təhlükənin miqyasını azalda bilər.

Bu gün ictimai təhlükəsizlik anlayışı rəqəmsal müstəvidə də möhkəmlənir. Polisin fasiləsiz fəaliyyəti vətəndaşların, internet istifadəçilərinin daha ayıq davranması ilə dəstəklənəndə təhdidlər mənasızlaşır. Çünki polis-vətəndaş ikilisi kibercinayətkarlığa qarşı mübarizədə effektiv mexanizmi ortaya qoyur. Gələcəkdə çağırışlar daha mürəkkəb ola bilər, amma artıq formalaşmış profilaktik model göstərir ki, düzgün istiqamətdə atılan addımlar konkret nəticə verir.

*R.Mehtiyev*

# Cəsur oğul, qalib döyüşçü

## Adı Vətənlə qoşa çəkilir



Hərbi zəfər qəhrəman xalqlara nəsib olur. Biz də qalib xalqın övladlarıyıq. Vətən müharibəsində cəsur oğullarımız minalanmış sahələri keçdilər, yüksəklikləri fəth etdilər, 44 gün gecə-gündüz atəş altında dayanmadan irəlilədilər… Vətəni bütünləşdirdilər. O qəhrəmanların sırasında şəhadət şərbətini içən hərbi qulluqçularımızdan biri baş əsgər Həsənov Pərviz Fərmayıl oğlu da var.

1989-cu il dekabrın 8-də Samux rayonunun Poylu kəndində doğulmuş Pərviz həm ailədə, həm də orta məktəbdə vətənpərvər ruhda tərbiyə olunub. 2008–2010-cu illərdə müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra bir müddət mülki işlərdə çalışsa da, hərbi xidmətə qayıtmağa qərar verib və öz seçimini edib. Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının komandanlığı tərəfindən Pərvizin müraciəti müsbət cavablandırılıb.

2013-cü ilin iyun ayının 29-dan etibarən Pərviz Daxili Qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb və bir müddətdən sonra xüsusi təyinatlı olmaq arzusuna qovuşub.

Döyüş yoldaşlarının sözlərinə görə, Vətən müharibəsi başladıqda öncə "N" saylı hərbi hissəyə göndəriliblər. Orada həm döyüş əməliyyatlarında iştiraka hazırlıq görülüb, həm də Bərdə və Tərtər rayonlarında komendant postlarında xidmətə cəlb ediliblər. Oktyabrın 16-dan etibarən Füzuli rayonunda yerləşiblər. Həmin vaxt ön cəbhədə şiddətli döyüşlər davam edirdi, erməni işğalçıları məğlub olaraq geri çəkilirdilər. Vahid komandanlıq altında Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçuları ilə birlikdə xüsusi təyinatlılarımız göstərilən istiqamətdə qarşıya qoyulan döyüş tapşırıqlarının icrasına başlayıblar.

Pərviz silahdaşları ilə birgə Füzuli, Xocavənd, Xocalı rayonlarının ərazilərində və Şuşa şəhəri yaxınlığında döyüş yolu keçib. Bu istiqamətlərdə bəzi yaşayış məntəqələrinin və yüksəkliklərin işğaldan azad olunmasına öz töhfəsini verib.

Füzuli rayonunda "Beton post" adlanan mövqe istiqamətində yerləşən dağıdılmış kəndin qəbiristanlığında düşmənin döyüş postlarının ələ keçirilməsində Pərviz cəsurluq göstərib. Digər istiqamətlərdə də pulemyot köməkçisi kimi avtomat silahı ilə qətiyyətlə vuruşaraq işğalçıları məhv edib. Həm hücumda, həm də müdafiədə ön sıralarda olub, atəş dəstəyi ilə bəzi döyüşçüləri təhlükəli vəziyyətlərdən çıxarıb. Azad edilən ərazilərə düşmənin diversiya-kəşfiyyat qruplarının sızmasının qarşısının alınması, nəzarətə götürülən şəhər və kəndlərdə gizlənmiş erməni hərbçilərinin axtarılması, onlara məxsus silah-sursatın qənimət götürülməsi üzrə tapşırıqları da cəsarətlə yerinə yetirib.

Noyabrın 5-də Şuşa-Xankəndi yolunun bəzi sahələrində pusqu qurulması əməliyyatı icra edilib. Pusquya düşən ermənilərin canlı qüvvəsi tələfata uğradılıb və bir neçə texnikası zərərsizləşdirilib. Noyabrın 6-da səhər vaxtı Şuşa-Xankəndi yolundakı yanacaqdoldurma məntəqəsi istiqamətində irəliləyiblər. Orada bir neçə saat döyüş gedib. Qeyd olunan tarixdə təxminən saat 18 radələrində Şuşa yaxınlığında mövqeləndikləri ərazi tanklardan və artilleriyadan şiddətli atəşə məruz qalıb. Bu zaman mərmi qəlpələrindən ağır yaralanan Pərviz şəhadətə ucalıb.

Azərbaycan Respublikası Prezidentinin 15, 25 və 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə baş əsgər P. Həsənov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

*Yalçın Abbasov*

# Şuşa və Xankəndidə od çərşənbəsi

## Polis təhlükəsizliyi təmin edir






Novruz bayramının ilaxır çərşənbələrindən ikincisi olan Od çərşənbəsi ölkənin hər yerində olduğu kimi, Şuşa və Xankəndi şəhərlərində də qeyd olunub.

Baharın gəlişini müjdələyən bu əlamətdar gün münasibətilə həmin şəhərlərdə bayram ab-havası müşahidə olunub, vətəndaşlar tonqallar qalayaraq qədim ənənələri yaşadıblar. Bayram tədbirləri zamanı polis əməkdaşları tərəfindən ictimai asayiş qorunub, vətəndaşların təhlükəsizliyi təmin edilib. Bu məqsədlə hər iki şəhərin əsas küçə və prospektlərində, insanların toplaşdığı ərazilərə əlavə polis naryadları xidmətə cəlb olunub.

Qeyd edək ki, Novruz bayramı öncəsi keçirilən çərşənbələr Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin və qədim adət-ənənələrinin yaşadılmasında mühüm rol oynayır. Şuşa və Xankəndidə qeyd olunan Od çərşənbəsi də bu ənənələrin yaşadıldığını və bayramın yüksək əhval-ruhiyyə ilə qarşılandığını bir daha nümayiş etdirib.

# Polis intizama dəvət edir

## Yolda qaydalara əməl etmək təhlükəsizliyin əsas şərtidir

**Şəhər yollarında moped və motosikletlərin sayı artdıqca risklər də böyüyür. Müşahidə kameralarının qeydə aldığı görüntülər də təsdiq edir ki, ikitəkərli nəqliyyat vasitələrinin iştirakı ilə baş verən qəzaların əsas səbəbi sürücü məsuliyyətsizliyidir.**



### Sürət və məsuliyyətsizlik faciəyə aparır

Qeydə alınan hadisələrin böyük hissəsi yüksək sürət həddinin aşılması ilə bağlıdır. Nəticədə idarəetmə itirilir, toqquşma qaçılmaz olur. Əks istiqamətdə hərəkət halları da ciddi təhlükə mənbəyidir. Vaxt qazanmaq istəyi saniyələr içində ağır qəza ilə nəticələnir. Qırmızı işıqda keçmə və yol nişanlarının tələblərinə məhəl qoymamaq isə digər hərəkət iştirakçılarını gözlənilməz vəziyyətə salır. Təhlükəli manevrlər, sıx nəqliyyat axınında ziqzaqvari hərəkət etmək, avtomobillər arasında məsafəni düzgün hesablamamaq da tez-tez rast gəlinən pozuntulardandır.

Təəssüf doğuran məqam həm də ondan ibarətdir ki, bəzi sürücülər bu davranışları ilə öyünür. Qayda pozuntularını lentə alaraq sosial şəbəkələrdə paylaşır, məsuliyyətsizliyi nümayişə çevirirlər. Bu isə xüsusilə gənclər üçün təhlükəli nümunə formalaşdırır.

Belə sürücülər qaydaları pozmaqla yox, onlara əməl etməklə nümunə olsalar, yollarımız daha təhlükəsiz olar. Yol hərəkəti mədəniyyəti şəxsi seçim deyil, ictimai təhlükəsizliyin əsas şərtidir.

### Moped sürücülərinə vəsiqə tələbi

Moped sürücülərinə DİN Baş Dövlət Yol Polisi İdarəsi də müraciət edib. Qeyd edilib ki, müvafiq dəyişikliyə əsasən 2026-cı ilin mart ayının 26-dan etibarən moped idarə etmək üçün "A1" kateqoriyalı sürücülük vəsiqəsi, nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi və dövlət nömrə nişanı tələb olunacaq.

Müəyyən edilmiş tarixə az müddət qaldığını nəzərə alaraq moped idarə etmək istəyən şəxslərə qeydiyyatda olduqları bölgələr üzrə qeydiyyat-imtahan məntəqələrinə əvvəlcədən müraciət etmələri tövsiyə olunur.

Bütün prosedurlar vahid qaydada tətbiq olunur və vətəndaşların rahat, səmərəli və bərabər əsaslarla xidmət alması təmin edilir. Moped idarə etmək istəyən şəxslərdən müəyyən olunmuş müddəti nəzərə almaları, qeyd edilən tarixdən etibarən inzibati məsuliyyətə cəlb olunmamaları üçün qanunvericiliyin tələblərinə uyğun olaraq üzərlərinə düşən vəzifələri vaxtında yerinə yetirmələri xahiş olunur.

# Saxtakarın ifşası

## Kiberpolis daha bir uğurlu əməliyyat keçirib

Daxili İşlər Nazirliyinin Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsinə (KMBİ) naməlum şəxsin Bakı Dövlət Universiteti, eləcə də digər ali təhsil müəssisələrinin hüquq fakültəsi tələbələrinin şəkillərini montaj edərək üzərinə təhqiramiz ifadələr yazdığı və sosial şəbəkələrdə paylaşdığı, silinməsi müqabilində isə pul tələb etdiyi barədə müraciətlər daxil olub. Kiberpolisin həyata keçirdiyi əməliyyat-texniki tədbirlər nəticəsində bu əməlləri törətməkdə şübhəli bilinən 28 yaşlı Fəxri Cəbrayılov saxlanılıb.

Araşdırmalarla müəyyən olunub ki, F.Cəbrayılov "TikTok" sosial şəbəkəsində "hüquq tələbələri" etiketi ilə axtarış edərək müxtəlif şəxslərin foto və video görüntülərini əldə edib. Daha sonra o, həmin görüntüləri süni intellekt proqramları vasitəsilə montaj edərək üzərlərinə təhqiramiz yazılar əlavə edib və müxtəlif saxta hesablar vasitəsilə təkrar sosial şəbəkələrdə paylaşıb.

Saxlanılan şəxs foto və video görüntülərin silinməsi üçün ona müraciət edən tələbələrdən isə bunun müqabilində müxtəlif məbləğlərdə pul tələb edib.

Faktla bağlı Baş İdarədə cinayət işi başlanılıb. F.Cəbrayılova Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə ittiham elan olunub və o, təqsirləndirilən şəxs qismində istintaqa cəlb edilib. Araşdırmalar davam etdirilir.

# Təhqirin cəzası...

## Sosial şəbəkədə təhqirə görə həbs




Ağsu Rayon Polis Şöbəsinin əməkdaşlarının həyata keçirdikləri tədbirlərlə "TikTok" sosial şəbəkəsində saxta hesablardan istifadə edərək vətəndaşların ünvanına nalayiq ifadələr yazan şəxs saxlanılıb.

Araşdırmalarla onun 27 yaşlı rayon sakini İlham Abdullayev olduğu müəyyən edilib. Həmin şəxs barəsində İnzibati Xətalar Məcəlləsinin internet informasiya ehtiyatlarında və ya informasiya-telekommunikasiya şəbəkələrində yayılması qadağan edilən informasiyanın yerləşdirilməsinə yol verdiyinə görə protokol tərtib edilərək hüquqi qiymət verilməsi üçün məhkəməyə göndərilib. Məhkəmənin qərarı ilə İ.Abdullayev 25 gün müddətinə inzibati qaydada həbs olunub.

# Oğrular istintaqda

## Mənzil və avtomobil qarət ediblər

Rayon ərazisində yerləşən mənzillərin birində ev sahibinin olmamasından istifadə edən naməlum şəxs içəri daxil olaraq 6000 manat dəyərində məişət əşyalarını talayıb. Nizami RPİ 23-cü Polis Şöbəsi əməkdaşlarının keçirdikləri tədbirlə əməli törətməkdə şübhəli bilinən 31 yaşlı A.Salahov müəyyən olunaraq saxlanılıb. Nəsimi rayonunda isə avtomobildən oğurluq edən şəxs saxlanılıb. Rayon sakininə məxsus "VAZ-2106" markalı avtomobildən 2800 manat nağd pul və maqnitofon oğurlanıb. Polis əməkdaşlarının həyata keçirdikləri tədbirlərlə əməli törətməkdə şübhəli bilinən, əvvəllər məhkum olunmuş 36 yaşlı O.Soltanov müəyyən edilərək saxlanılıb.

Hər iki faktla bağlı araşdırma aparılır.

# Qaradağda narkotik əməliyyatı

## İlin əvvəlindən 80 kiloqrama yaxın narkotik vasitə aşkarlanıb

Qaradağ Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən keçirilən əməliyyat zamanı 43 yaşlı Əkbər Əliyev saxlanılıb. Ondan 21 kiloqram 302 qram marixuana, 496 qram tiryək və 50 ədəd psixotrop tərkibli metadon həbi aşkarlanıb.

İdarə əməkdaşlarının keçirdikləri növbəti əməliyyat zamanı isə paytaxt sakini 39 yaşlı Elxan Bəndəliyev də narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilindiyi üçün saxlanılıb. Ondan isə 23 kiloqram 975 qram marixuana aşkarlanaraq götürülüb.

İdarə əməkdaşlarının keçirdikləri sonuncu əməliyyat zamanı da narkotiklərin paytaxt ərazisində qanunsuz dövriyyəsini təşkil etməkdə şübhəli bilinən 32 yaşlı Yunis Məmmədov, həmyaşıdı Nazir Tağıyev və 34 yaşlı Urfan Məmmədli Lökbatan qəsəbəsində saxlanılıblar. Bu şəxslərdən isə Bakı şəhərinə müxtəlif ünvanlara yerləşdirmək məqsədi ilə gətirdikləri 20 kiloqram 250 qram marixuana aşkarlanıb.

Sonuncu əməliyyatlar zamanı 66 kiloqramdan artıq narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb.

Faktlarla bağlı cinayət işləri başlanılıb, araşdırmalar davam etdirilir.

# Sabahın zabiti olmaq fürsəti...

## DİN Daxili Qoşunlarının Hərbi İnstitutu kursant qəbulu elan edir

**Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Hərbi İnstitutu 2026-2027-ci tədris ili üçün "İctimai təhlükəsizlik və idarəetmə" ixtisasına kursant qəbulu elan edir.**



Namizədlər Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm, buraxılış sinfində oxuyan və ya tam orta təhsilli, qəbul edildiyi ildə 17 yaşı tamam olan və 20 yaşı keçməyən Azərbaycan Respublikasının vətəndaşları sırasından seçilir.

Sınaq və müvafiq yoxlamalardan uğurla keçən namizədlərin siyahısı Dövlət İmtahan Mərkəzinə göndərilir.

İmtahanlar test üsulu ilə 3-cü ixtisas qrupuna aid fənlər üzrə Azərbaycan və rus dillərində keçirilir. Kursantlar dövlət hesabına geyim forması, yataqxana və yeməklə təmin edilirlər. Tədris Azərbaycan dilində aparılır, müddət 4 ildir. Məzunlara diplom və "leytenant" hərbi rütbəsi verilir. Onlar daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər. İnstituta sənədlər 2026-cı il martın 1-dən aprelin 20-dək, iş günləri saat 10-dan 17-dək Daxili Qoşunların Baş İdarəsində qəbul olunur.

Əlavə məlumatları Daxili İşlər Nazirliyi və Daxili Qoşunlarının rəsmi internet səhifələrindən, eləcə də (012) 560-27-00, (012) 513-23-06, (012) 590-65-38 nömrələrinə zəng edərək əldə etmək mümkündür.

# London polisinin ilk qadın komissarı

## Kressida Dikin xidmət yolu



London… Keçmiş imperiyanın paytaxtı, tarixi küçələr, şaxtalı küçə fənərləri və böyük insanların böyük hekayələri… Ancaq 200 ildən artıq tarixə malik olan bu şəhərdə polis xidmətinə qadın rəhbərin gətirilməsi heç vaxt bu qədər real görünməmişdi. Bu tarixi səhifəni dəyişən isə Kressida Dik oldu. Onun hekayəsi yalnız peşəkar yüksəliş deyil, həm də əzmkarlıq, stress altında qərarvermə, insanlara qarşı məsuliyyət və çətin anlarda liderlik bacarığıdır.

1983-cü il idi. Oksford Universitetini bitirmiş, cəmiyyət və təhlükəsizlik mövzularına dərindən maraq göstərən Kressida Londonun mərkəzi küçələrində patrul polisi kimi fəaliyyətə başladı. Bu vəzifə onun üçün həm də gələcəyin zəmini, motivasiya mənbəyi idi. Qısa müddət sonra o, sosiologiya və kriminologiyanın incəliklərini öyrənmək üçün vaxt tapdı və Kembric Universitetində magistratura təhsili aldı. Bu akademik biliklər onun gələcəkdə idarəçilik və strateji qərarvermədə daha geniş baxışla hərəkət etməsinə təkan verdi. Sadəcə patrul olmaqla kifayətlənməyən Kressida ardıcıl müsbət nəticələr və yüksək liderlik bacarıqları sayəsində vəzifə pillələrində yüksəldi. 2000-ci illərin əvvəllərində rayon komandiri, daha sonra isə ağır cinayət və terrorla mübarizə sahələrində əsas rəhbər vəzifələrdə çalışdı. Bu yol onun təkcə peşəkar bacarığını deyil, həm də cəmiyyətin müxtəlif qrupları ilə işləmək qabiliyyətini göstərirdi.

### Zirvəyə doğru

2000-ci illərin ortalarında Kressida terrorla mübarizə əməliyyatlarında rəhbərliyi üzərinə götürdü. Bu dövr 2005-ci il iyulun 7-də London bombalanmaları kimi faciəli hadisələrlə yadda qaldı. Polis əməliyyatında yanlış tanınma nəticəsində bir mülki şəxs - Jan Şarl de Menes terrorçu hesab edilərək öldürüldü və bu hadisə uzun müddət cəmiyyətin diqqət mərkəzində qaldı. Kressidanın bu məsuliyyəti daşıması onun üçün ağır sınaq oldu, lakin sonradan keçirilən məhkəmə onun günahsız olduğunu. isbat etdi.

### İlk qadın komissar

2017-ci il London polisinin, 1829-cu ildən fəaliyyət göstərən bu köklü qurumun tarixində dönüş nöqtəsi oldu. Kressida Dik rəsmi olaraq ilk qadın komissar kimi təyin edildi. Bu, onun peşəkar uğuru olmaqla yanaşı, həm də qadınların hüquq-mühafizə sistemində artan rolunun simvolu idi.

Komissar olaraq Kressida yalnız ofisdə oturan rəhbər deyildi. Onun qarşısında terror təhdidləri, ictimai etirazlar, təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və London kimi böyük bir şəhərdə asayişin daim qorunması kimi mürəkkəb çağırışlar dururdu. Onun dövründə polis xidmətində islahatlara ehtiyac olduğu, köhnə strukturların müasir problemlərlə mübarizədə bəzən yetərsiz qaldığı açıq şəkildə görünürdü. Bu dönəmdə London polisində cəmiyyətlə münasibətlərdə müəyyən gərginliklər yaşandı, ictimai etimad məsələsi gündəmə gəldi və müstəqil nəzarət mexanizmlərinin gücləndirilməsi tələb olundu. Kressidanın rəhbərliyi dövründə daha şəffaf, nəzarət edilə bilən və cəmiyyətə hesabat verən strukturun formalaşdırılması istiqamətində addımlar atıldı. Beş illik xidmətindən sonra Kressida Dik 2022-ci ildə komissar vəzifəsindən istefa verdi.

Bu gün dünyada qadınlar polis sistemində vacib məqamlarda qərar verir, strateji vəzifələr tutur, cəmiyyəti qoruyur və təhlükəsizliyi formalaşdırırlar. Onlar terrorla mübarizədən tutmuş ictimai asayişin qorunmasına, uşaq və qadınların müdafiəsinə qədər bir çox çətin vəzifələri yerinə yetirirlər.

Azərbaycanda da qadın polislərin xidmətdə xüsusi yeri var. Ölkəmizdə də qadın polis əməkdaşlarının sayı artmaqdadır. Onlar xidmətin müxtəlif növlərində, o cümlədən post patrul, istintaq və təhqiqat, ictimai təhlükəsizlik, məişət zorakılığı ilə mübarizə və uşaq hüquqlarının qorunması istiqamətlərində fəaliyyət göstərirlər. Müasir dövrdə qadın polislər peşəkarlıqları, şəfqətləri və sosial məsuliyyətləri ilə cəmiyyət üçün əvəzolunmaz dəyər yaradırlar.

*Aytən Tahirova*

# Süni intellekt - alternativ zəka

## Qlobal inkişaf və Azərbaycanın rəqəmsal gələcəyi

### Əsasən harada tətbiq olunur ?

İnsan tarixin bütün mərhələlərində dünyanın, hətta kainatın yeganə intellektual varlığı sayılıb. Hazırda isə elə bir dövr gəlib çatıb ki, insan zəkası özünə alternativ yaradır. Hansı ki, ona süni intellekt – Aİ texnologiyası deyilir. Hazırda o gündəlik həyatımızın ayrılmaz hissəsinə çevrilməkdədir.

Qısa desək, süni intellekt insan beynini təqlid edən kompüter sistemləri və proqramlar kimi başa düşülür. O elə bir texnologiyadır ki, insan davranışını təqlid etməklə məlumatı emal edir, öyrənir və qərar qəbul edir. Əsası 1950-ci illərdə atılmış olsa da, yalnız indilərdə insanların gündəlik iş yükünü azaltmaq üçün geniş tətbiq ediləcək qədər inkişaf edə bilib.

Süni intellektin tətbiqi genişdir və əsasən tibb, biznes, təhsil, nəqliyyat sahələrində istifadə olunur. Hətta son dövrlər süni intellekt cinayətkarlıqla mübarizədə polis orqanlarına köməkçi qismində də çıxış edir. Bir çox ölkədə artıq cinayətlərin açılması və vətəndaş müraciətlərinə daha operativ şəkildə baxılmasında süni intellektdən istifadə edilir. Məsələn, elə bu yaxınlarda Böyük Britaniyada polisə edilən təcili olmayan zəngləri idarə etmək üçün süni intellekt ilə işləyən çat-botlardan istifadə ediləcəyi elan olundu. Bu yenisiklə zəng birbaşa operatora, polisə və ya başqa bir təcili yardım xidmətinə ötürüləcək.

### Azərbaycanda süni intellekt

Çox uzağa getmədən ölkəmizdə bu sahənin inkişafına xüsusi diqqət ayrıldığını deyə bilərik. Məlum olduğu kimi, süni intellekt artıq "E-Polis" mobil tətbiqinə də inteqrasiya edilib ki, vətəndaşlar onları maraqlandıran məsələlər barədə ünvanladıqları suallara onun vasitəsilə operativ şəkildə cavab ala bilirlər.

Ümumiyyətlə Azərbaycanda süni intellektin inkişafı qlobal texnoloji transformasiyanın bir hissəsi kimi formalaşmaqdadır.

Bu günlərdə rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı Prezident İlham Əliyevin imzaladığı Fərman, eyni zamanda 2026–2028-ci illər üzrə Fəaliyyət Planının təsdiqi haqqında Sərəncam yeni texnologiyanın hüquqi əsaslarını yaradıb. Mütəxəssislər hesab edirlər ki, bu sənədlər süni intellekt sahəsində Azərbaycanda ciddi dönüşün əsasını qoydu.

### Üstünlüklər və çətinliklər

Süni intellekt müasir dövrdə texnologiyanın ən sürətlə inkişaf edən sahələrindən biri kimi həm böyük imkanlar yaradır, həm də cəmiyyət, iqtisadiyyat və etik dəyərlər baxımın-



dan bir sıra ciddi suallar və çətinliklər ortaya çıxarır. Təkrar olunan işlərin avtomatlaşdırılması, məlumatların sürətli təhlili və daha dəqiq qərarlar, o cümlədən istehsal proseslərində məhsuldarlığın artırılması süni intellektin üstünlüklərindəndir.

Çətinliklərinə gəldikdə isə sistemin qərar qəbul etməsindəki şəffaflıq və ədalətlilik, iş yerlərinin azalması riski, həmçinin məlumat təhlükəsizliyi və məxfiliyin qorunması kimi narahatlıqlar da var.

*L.Babayeva*

# Polis əməkdaşları idman meydanlarında

## Beynəlxalq yarışdan medalla gələnlər



Naxçıvan MR Daxili İşlər Nazirliyinin əməkdaşları Türkiyədə keçirilən qarüstü qaraqucaq güləşi festivalında uğurla çıxış ediblər.

Üç yüz illik tarixə malik olan festival Türkiyənin Artvin vilayətində keçirilib. Azərbaycan və Gürcüstanla yanaşı, Türkiyənin Ərzurum, Amasya, İstanbul, Tokat, Samsun və Artvin vilayətlərindən 12 kateqoriya üzrə ümumilikdə 149 idmançının qatıldığı turnir çərçivəsində qarla örtülü meydançada güləş yarışları təşkil olunub.

Azərbaycanı yarışda "Naxçıvan" komandasının 6 idmançısı təmsil edib ki, onların ikisi polis əməkdaşıdır. Təmsilçilərimiz yarışın yekununda 1 qızıl, 1 gümüş və 4 bürünc medal qazanıblar.

Naxçıvan MR Daxili İşlər Nazirliyinin əməkdaşları polis serjantları Hüseyn Rzayev 85 kq çəkidə gümüş, Kərамət Xudiyev (90 kq) isə bürünc medal qazanıb.

# Detektiv romanlar və polis dünyası

## Cinayət və təhqiqatın ədəbi populyarlığı




Dünyada ilk detektiv romanlar 19-cu əsrin ortalarında meydana çıxdı və cinayət araşdırmaları, kriminal istintaqları geniş oxucu kütləsinə tanıtdı. Ən məşhurlardan biri Edqar Alan Ponun "Murder in the Rue Morgue" əsəri idi ki, burada ilk dəfə detektiv metodları və kriminal analizlər təsvir olunurdu. Bu əsərlər polis işlərinin mürəkkəbliyini və istintaqın incəliklərini əyləncəli və maraqlı formada təqdim etdi.

Detektiv romanlar oxuculara cinayət dünyasının qaydalarını, dəlillərin toplanması və şübhəlilərin izlənməsi üsullarını öyrətdi. Onlar həmçinin ictimaiyyətin polis peşəsinə olan hörmətini artırdı və polisin fəaliyyətinin yalnız zorakılıqla deyil, zəka və planla da aparıldığını göstərdi. Bu janr Şerlok Holms və digər klassik detektivlərin məşhurluğu ilə zirvəyə çatdı.

Oxucular qəhrəman detektivlərin hadisələri necə araşdırdığını izləməklə hüquq-mühafizə işlərinin real həyatdakı önəmini daha yaxşı başa düşdülər. Detektiv romanlar həm də kriminal düşüncəni inkişaf etdirir, analitik bacarıqları gücləndirir və problemi həll etməyə maraq yaradır. Müasir dövrdə polis serialları, sənədli filmlər və kitablar bu ənənəni davam etdirir.

Belə əsərlər həm də cəmiyyətin təhlükəsizlik mövzusuna diqqətini çəkir və gəncləri hüquq-mühafizə sahələrinə cəlb edir. Onlar göstərir ki, polis işinin maraqlı tərəfi yalnız cinayəti dayandırmaq deyil, həm də ətrafı araşdırmaq, həm aparmaq və ədaləti təmin etməkdir. Detektiv romanların təsiri sayəsində polisin fəaliyyəti tədricən həm maarifləndirici, həm də əyləncəli sahəyə çevrildi.

Bu gün də cinayət və istintaq hekayələri oxucuları cəlb edir, hüquq və ədalət anlayışlarını gündəmə gətirir. Detektiv janrı klassik ədəbiyyatdan müasir mediaya qədər polis dünyasının davamlı bir pəncərəsi kimi xidmət edir.

*A.Tahirova*

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: ANAR QAFAROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik